Ədalət .- 2025.- 26 dekabr (№49).-S.6.



Faiq QİSMƏTOĞLU
faiqqismetoglu@box.az

# Vətəni canından çox sevənlər...

... Mən Vətəni sevən iki cür insan tanıyıram; biri ürəkdən, bir də sözdə sevən! Ürəkdən sevənlər Vətən yolunda canlarını hər an qurban verərlər. Sözdə sevənlərsə ”Vətən, Vətən” - deyər, amma onun çətin günündə sinələrini irəli verməzlər və qaçıb gizlənərlər. O qədər belə adamlar tanıyıram ki! Adlarını da çəkə bilərəm.

Sadəcə olaraq onlar dil pəhləvanlarıdı. Ona görə də, heç adlarını, soyadlarını çəkmirəm ki, qanınızı qaraltmayım, çünki belələrini siz də tanıyırsız və özü də çox yaxşı tanıyırsız! Onlarla işimiz yoxdu! Biz Vətəni sevən, onun yolunda hər cür çətinliyə dözən, o yolda ölümdən belə qorxmayan bir vətənpərvər dostumuz və qardaşımız haqqında söhbət açmaq istəyirik.

O, Qubadlının Mollu kəndində boya-başa çatmış, dərin kökü olan, nəsli-nəcabəti tanınan İlham Əliyevdir. Mən İlham müəllimi 25 ilə yaxındır ki, tanıyıram. Və həmişə də onun sadəliyinə, səmimiyyətinə və dostluqda sədaqətinə heyran olmuşam. İnanın, o, elə adamları çətin vəziyyətdən çıxarıb, onlara arxa durub ki, həmin insanlar bu nəcib hərəkətinə görə İlham qardaşımıza minnətdarlıq ediblər.



Çünki bu insanların ağlına belə gəlməzdi ki, İlham Əliyev onları axtarıb tapar və çətinlikdən çıxarar. Və bunların heç birini - elədiyi yaxşılıqları o, heç vaxt dilinə gətirməz! Əlbəttə, mənən zəngin, görüb-götürmüş adamlar elə onun kimi hərəkət edirlər. Təbii ki, belə insanları Allah da çox istəyir.

Ən azından ona görə ki, Allahın verdiyi ruzini imkansız və kasıb adamlardan gizlətmir. Allah da İlham müəllimin əliaçıqlığını görüb, o ruzini qat-qat artırır. Torpaqlarımız işğalda olan günlərdə o, bu dünyada rahatlıq tapa bilməyib. Və həmişə də Qubadlı deyib, Şuşa deyib, Zəngilan deyib, Ağdam deyib, Laçın deyib, Kəlbəcər deyib... Yəni Vətənin işğal altında olan torpaqları üçün dodağı dörd yerdən çatlayıb.

O, Birinci Qarabağ Savaşında həmişə ordumuza, əsgərlərimizə dəstək olub. Tez-tez Qarabağda, o cümlədən Qubadlıda olub və bir vətən oğlu kimi bacardığı maddi və mənəvi köməkliyi göstərib. Və ən nəhayət bütün Qarabağ torpağı işğaldan tamamilə azad olunandan sonra Qubadlıda və digər rayonlarda abadlıq, quruculuq işlərində yaxından iştirak edib və bu gün də bu missiyanı davam etdirir.

Başqaları kimi o, ”Vətən, Vətən”, - demir. Öz isi, öz əməli ilə Vətənə arxa durur, dayaq olur. İlham qardaşımız təpədən dırnağadək Türkçüdür. Belə ki, o, Ulu Öndər Heydər Əliyevi, Prezident İlham Əliyevi sevdiyi qədər Mustafa Kamal Atatürkü də sevir. Və deyir ki, bir millət, iki dövlət olan Türkiyə-Azərbaycan dostluğu əbədidir. Çünki bu dostluğun keçmişi ən uzaq tarixə kimi uzanır. İlham qardaşımız Türk xalqlarının böyük oğlu Atatürkün anım günündə bu dahi şəxsiyyətin məqbərəsini ziyarət edib! Vətən yolunda şəhid olurlar, qazi olurlar, qalib olurlar.

Eləcə də Vətəni canından çox istəyən İlham müəllim kimi oğullarımız da var. Və biz belə mərd, igid və qəhrəman oğullarımızın hesabına torpaqlarımızı erməni işğalından azad elədik və ərazi bütövlüyümüz təmin olundu. Allah belə oğullarımızı qorusun!!!